# Valideynlərlə görüş

***Bu gün peşə təhsilinin inkişafı gənc nəslə daha uğurlu gələcək qurmağa təminat verir.***

***Şagirdlərin bir şəxsiyyət kimi formalaşmasında seçdiyi peşənin incəliklərini bilməsi, hərtərəfli biliyə malik olması üçün peşə məktəblərində təlimin səviyyəsinin yüksəldilməsi qarşıya qoyulan əsas vəzifələrdən biridir.***

***Bu baxımdan Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzi şagirdlərin peşə hazırlığının yaxşılaşdırılmasının zəruriliyini nəzərə alaraq sıx məktəb-valideyn əməkdaşlığının qurulmasını vacib amil hesab edir.***

Bu məqsədlə tədris mərkəzində valideynlərlə ənənəvi görüş keçirilmişdir.

Tədbiri tədris mərkəzinin direktoru Eyvaz Kazımov açaraq şagirdlərin seçdiyi hər bir peşəyə müvafiq təcrübə və bilik əldə etməsi üçün bacarıqlı mühəndis-pedaqoji heyətinin səylə çalışdığını bildirmişdir.

Mərkəzin müəllimi İlham Əfəndiyev çıxış edərək yeniyetmə və gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsinin, onlara milli-mənəvi dəyərlərimizin aşılanmasının, zəngin və qədim tariximizi öyrədilməsinin, Vətənin müdafiəsində canlarından keçmiş milli qəhrəmanlarımızın keçdiyi döyüş yolu ilə tanış edilməsinin zəruriliyini vurğulamış, bu məsələlərin gənc nəslin həyatda düzgün mövqe tutmasına, əsl vətənpərvər kimi yetişməsinə stimul verdiyini diqqətə çatdırmışdır.

Tədbirdə aşpaz qrupunun istehsalat təlimi ustası Mehman Abdullayev, tədris ilini yeni qrupla başlayan Azər Abdulxalıqov, turizm agenti qrupunun istehsalat təlimi ustası Səbinə Cahangirli öz qrupları ilə bağlı məlumat verərək təlimin keyfiyyətini yüksəltmək üçün gördükləri işlərdən və eyni zamanda tədris prosesində üzləşdikləri problemlərdən söz açıblar.

Tədbirin sonunda məktəbin- ictimai siyasi həyatında fəal iştirak edən və təlim-tərbiyəsində problem olan şagirdlərin valideynləri ilə tədris mərkəzinin psixoloqu söhbət edib, bu barədə rəy və təkliflərini bildirib.

**Vüsalə QƏRİBOVA,**
**tədris mərkəzinin psixoloqu.**

# Ənənələrimizə hörmətlə yanaşaq

Alkaqol haqqında çox yazılıb. Ancaq, çox təəssüf ki, zəmanəmizin bu bəlasından insanları nə həkim məsləhəti, nə ağsaqqal sözü xilas edə bilmir. Zaman-zaman ailələr, övladlar, valideynlər alkaqolun qurbanına çevrilirlər. Kütləvi informasiya vasitələrinin həvəslə verdikləri kriminal xəbərlərin əksəriyyətinin sonunda qeyd olunur: Qatil sərxoş olub, sürücü içkili olub və sair. Bizi narahat edən odur ki, gözəl adətimiz olan toylarımız da içki məclisinə çevrilib.

Toy etmək, oğluna gəlin gətirmək, qızını köçürmək, nəvə sahibi olmaq, övladlarının xoş günlərini görmək hər bir valideynin arzusudur. Tarixən, bəşər övladı yaranandan belə olub. Ancaq, çox təəsüf ki, bəzi müasir toyların məcrası əvvəlkilərdən çox dəyişilib. Dədə babalarımız toyu onu görə ediblər ki, həm yeni ailənin qurulmasını bir şadlıq məclisinə çevirsinlər, həm də ağsaqqalların, dost-tanışın xeyir duasını alsınlar.

Bəs indi necədir? Əksər toylar əvvəlki məcrasından çıxaraq içki və yeyib-içmək məclisinə çevrilib. Masanın üstünə 30-40 cür məzə, salat və sözsüz ki, ən azından 3-ü cür spirtli içki düzülür.

Toyun təxminən 1 saatından sonra bəy də, gəlin də, hətta toy sahibi də yaddan çıxır. Bayağı rəqs yarışı gedir. Ağız deyəni qulaq eşitmir.

Bir neçə ay sonra da yeni ailədə söz-söhbət başlayır, bəzi hallarda bu söz-söhbət yeni cütlüyün ayrılmasına qədər gedib çıxır. Bu cütlüyün toyunda spitli içkinin təsiri ilə möhkəm ailədən, sədaqətdən, məhəbbətdən dəm vuran «ağsaqqallar», dost-tanş isə gözə görünmür.

Toyu- yeni ailənin qurulması prosesini, bu gözəl adəti içki məclisinə çevirməyin nəticəsi bəzən belə olur.

**Cəlil SƏFƏRÇİNOV,**
**«Qəbələ»nin müxbir postunun rəhbəri.**

# Hərtərəfli inkişaf etmiş gənclər yetişdirmək əsas vəzifəmizdir

Ulu öndərimiz Heydər Əliyevin ölkəmizdə vətənpərvər, sağlam düşüncəli yeni nəslin yetişdirilməsi sahəsində xidmətləri misilsiz olmuşdur. Ulu öndərin layiqli davamçısı cənab Prezident İlham Əliyev bu ideyaları rəhbər tutaraq gənc nəslin sağlam inkişafını təmin etmək üçün ardıcıl olaraq tədbirlər həyata keçirir. Bu tədbirlərdən ən önəmlilərindən biri də gənclərin hərtərfli inkişafı üçün nəzərdə tutulan dövlət proqramlarıdır. Dövlət proqramlarında əsas məsələlərdən biri də məktəbli gənclər və yeniyetmələrlə aparılan işin təşkilidir.

Qəbul edilmiş dövlət proqramlarının üzərimizə qoyduğu vəzifələrin icrası məqsədilə gənclər və idman idarəsi tərəfindən tədbirlər planı hazırlanmış, 2016-2017-ci tədris ilində rayon təhsil şöbəsi ilə birlikdə bir çox tədbirlər həyata keçirilmişdir. Keçirilən tədbirlərin başlıca istiqamətlərindən biri yeniyetmə gənclərin hərbi vətənpərvərlik işi hər an diqqət mərkəzində olmuşdur. Bu istiqamətdə məktəblər arasında «Şahin», «Sərhəd», «Gənc xilasedici və yanğınsöndürən» hərbi idman oyunları, «Vətənin müdafiəsinə hazıram» çoxnövçülüyü üzrə rayon birinciliyi yarışları keçirilmiş və Zarağan kənd 2 nömrəli, Abrıx kənd, Bum qəsəbə, Əmirvan kənd tam orta məktəblərinin komandaları yüksək nəticələr əldə edərək rayonumuzu zona və final mərhələlərində təmsil etmişlər.

Bundan əlavə məktəblilərin iştirakı ilə yeniyetmələr arasında cüdo üzrə Açıq Qəbələ Turniri keçirilmişdir ki, bu da ictimaiyyət arasında böyük maraqla qarşılanmışdır.

İdmanın şahmat, futbol, taekvondo, boks, armrestlinq, sərbəst-güləş, cüdo, döyüş növləri üzrə qazanılmış medal və mükafatçıların sıralarında məktəblilərimizin də öz payları olmuşdur. Rayon məktəblərinin şagirdlərindən ibarət komandamız II yerə layiq görülmüşdür.

Gənclərlə iş sahəsi üzrə ötən dövr ərzində şagirdlər arasında müxtəlif mövzularda rəsm, inşa yazı müsabiqələri keçirilmişdir. Bunlardan «Narkomaniyaya qarşı mübarizə mənəviyyatımızın xilası deməkdir» mövzusunda dəyirmi masanı, «Şəhidlik—ölməzlik zirvəsidir» mövzusunda inşa-yazı müsabiqəsini və s. misal göstərmək olar. Gənclər və İdman Nazirliyinin layihəsi olan «İstedadların hazırlığı laboratoriyası» olimpiadasında Qəbələ məktəbliləri öz fəallıqları ilə seçilmişlər. Kompüter oyunları üzrə Azərbaycan Milli Çempionatında və «Xəmsə» Milli İntellektual Oyununun respublika mərhələsində də məktəb komandalarımız uğurla çıxış etmişlər.

Bu ilin sentyabr ayının 15-də möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən imzalanan «Azərbaycan gəncliyi 2017-2021-ci illərdə» Dövlət Proqramı üzərimizə daha böyük vəzifələr qoyur.

**Mübariz AĞAYEV,**
**rayon gənclər və idman idarəsinin əməkdaşı.**

## Həkim məsləhəti

# Uşaqları yanıqdan qoruyun

Yanıq yüksək tempraturlu amillərin (od, alov, qaynar su), elektrik cərəyanının, kimyəvi maddələrin və s. təsiri nəticəsində əmələ gəlir. Yanıq birinci növbədə insan orqanizminin ən böyük həyatı vacib orqanı olan dərini zədələyir. Qeyd etməliyik ki, dəri insan orqanizminin 15 faizini təşkil edir.

Ağırlığına görə dərəcələrə bölünən yanıqlar əsasən ehtiyatsızlıq üzündən və müxtəlif texnogen hadisələr nəticəsində baş verir. Yanıq hadisələrinə ən çox uşaqlar arasında təsadüf olunur.

Uşaqlar və böyüklər yanığın dərəcəsindən asılı olmayaraq mütləq həkim nəzarətinə götürülməlidir. Təcrübə göstərir ki, ən yüngül yanıqlar belə müalicəsinə düzgün yanaşılmadıqda fəsadlar törədə bilər.

Yanıq zamanı həkimə qədər ilkin yardımın da düzgün seçilməsinin böyük əhəmiyyəti var. Birinci növbədə yanığı törədən səbəblə zərərçəkənin kontaktının kəsilməsi lazımdır. Paltarları kəsərək soyundurduqdan, bəzək əşyalarını çıxardıqdan sonra əgər ehtiyac varsa ürək fəaliyyətinin bərpası üçün ürəyin qapalı masajının aparılması, tənəffüs yollarının keçiriciliyinin təmin edilməsi vacibdir.

Yanığın şok edici təsirini azaltmaq üçün analgetiklərdən istifadə etmək olar.

Kiçik yanıqlarda belə tetanus riskinin olmasını nəzərə alaraq vaksinasiya aparılmalıdır. Kiçik, dərini çox zədələməyən yanıqlar zamanı soyuq sudan istifadə etmək olar. Ancaq geniş yanıqlarda hipotermiya riski olduğu üçün soyuq sudan istifadə edilməməlidir.

Yanığın əmələ gətirdiyi yaraya diş məcunu, yoğurt, tomat pastası və s sürtmək olmaz. Ən doğru hərəkət yanıq yarası almış şəxsi quru və təmiz örtüyə bükərək xəstəxanaya çatdırmaqdır.

Hadisənin qarşısını almaq onun nəticələrinin aradan qaldırılmasından daha rahat və ucuz başa gəlir. Ona görə də yanıqların baş verməməsi üçün birinci növbədə kiçik yaşlı uşaqlar kibritdən, digər alışdırıcılardan, mətbəxdən uzaq tutulmalıdır. Elektrik xətləri, açarları, daim nəzarətdə saxlanılmalı, uşaqların elektrik və qaz peçləri, ütülər, fenlər və sair qızdırıcılarla təmasına yol verilməməlidir.

**Elnur İSKƏNDƏROV,**
**müalicə-diaqnostika mərkəzinin cərrahı.**

# Respublikamızda

## Azərbaycanın 187 ölkə ilə ticarət əlaqəsi var

Yanvar-oktyabr aylarında Azərbaycan dünyanın 187 ölkəsi ilə ticarət əməliyyatları həyata keçirib. 113 ölkəyə məhsul ixrac olunub, 180 ölkədən idxal olunub.

Dövlət Statistika Komitəsinin məlumatına görə, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla bu ilin yanvar-oktyabr aylarında xarici ticarət dövriyyəsi 19,4 milyard, o cümlədən ixracın dəyəri 12,5 milyard, idxalın dəyəri 6,9 milyard dollar təşkil edib. Nəticədə 5,5 milyard dollarlıq müsbət ticarət saldosu yaranıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 9,4 faiz artıb, real ifadədə isə 12 faiz , o cümlədən ixrac 8,1, idxal 18 faiz azalıb.

Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, ixracın 22,9 faizini İtalyaya göndərilmiş məhsulların dəyəri təşkil edib. Ölkəmizə idxal olunmuş məhsulların ümumi dəyərinin isə 17,3 faizi Rusiyanın payına düşüb.

## Qeyri-neft sektorunda ÜDM istehsalı 2,4 faiz artmışdır

Cari ilin yanvar-noyabr aylarında ölkədə 63 milyard 71,3 milyon manatlıq və ya əhalinin hər nəfərinə 6481,8 manat məbləğində ümumi daxili məhsul istehsal edilmişdir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu dövrdə ÜDM istehsalının 40,1 faizi sənayenin, 10,1 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri sahələrinin, 8,8 faizi tikintinin, 6,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,6 faizi informasiya və rabitə sahələrinin, 17 faizi digər sahələrin payına düşmüşdür. Məhsula və idxala xalis vergilər isə ÜDM-in 7,7 faizini təşkil etmişdir.

11 ayda iqtisadiyyatın qeyri-neft bölməsində istehsal olunmuş əlavə dəyər əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,4 faiz artmış, neft bölməsində isə 5,1 faiz azalmışdır.